## *Aprel şəhidləri: Mahirlər...*

***Ad insanların kimliyini təsdiq edən bir meyardır. Ad həm də valideynlərin övlada verdiyi ilk və ömürlük hədiyyədir.***

***Hz. Peyğəmbərimiz də buyurub ki, övladlarınıza yaxşı adlar verin, çünki adın insan həyatında müəyyən rolu var. Ad insanın kimliyini təsdiq edir, insan da bir ömür öz adını doğrultmağa çalışır.***

***2016-cı ilin aprel döyüşlərində şəhid olan iki vətən oğlu barədə bu yazını hazırlayanda heyrət içində idim. İki eyni adlı, eyni taleli, eyni qeyrətli, eyni gündə şəhid olan, eyni gündə dəfn olunan Mahirlər...***

# Quliyev Mahir Qədir oğlu:
# 1993-cü il 21 dekabr - 2016-cı il 2 aprel



1993-cü ildə 21 dekabrda, ilin ən uzun gecəsində Qədir kişinin ailəsində doğulan oğlan uşağına Mahir adı qoydular. Qədir kişi bu adı çoxdan seçmişdi, elə bil ürəyinə dammışdı ki, oğlu olacaq... Ona görə də ata öz adına uyğun bir ad seçmişdi. Qədir- Mahir...

Mahir əslən Şərur r-nunun Qorçulu kəndindən olsa da, Bakı şəhərində doğulmuşdu. Orta məktəbi bitirəndən sonra Mahir Quliyev Azərbaycan Texniki Universitetinə daxil olmuş, 2015-ci ildə ali təhsini başa vurmuşdu.

O, Qarabağ uğrunda gedən aprel döyüşlərinə könüllü getmişdi. Mahir Quliyev Azərbaycan Silahlı Qüvvələrin əsgəri idi. Çox təəssüf ki, 2016-cı il 2 aprel tarixində Tərtər döyüşləri zamanı qəhrəmancasına şəhid oldu. Onun meyitini həmin gün döyüş gedən ərazidən mümkün olmadı.

8 aprel 2016-cı il tarixində Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsi ilə əldə olunan razılığa əsasən neytral zonada qalan şəhidlərlə birlikdə Mahir Quliyevin nəşi də götürülərək ailəsinə göndərildi. Mahir Qədir oğlu Quliyevin cənazəsi yalnız aprel ayının 9-da III Fəxri Xiyabanda dəfn olundu.

Döyüşdə göstərdiyi qəhrəmanlığa görə Mahir Qədir oğlu Quliyev ölümündən sonra Dövlət başçısı İlham Əliyevin sərəncamı ilə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif olunub. Allah bütün şəhidlərə rəhmət eləsin

***Gülarə MUNİS,***
***AYB və AJB üzvü.***